VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 201-208
Telif Haqqı©Varlıq Dergisi

Dr. Məhəmmədtağı Zehtabi Çağdaş Azərbaycan Milli Hərəkətinin Mənəvi Atası

● **Eldar QARADAĞLI** [1]

Məhəmmədtağı Zehtabi (1923-1998) Güney Azərbaycan'ın tanınmış dilçisi, tarix araşdırıcısı, ədəbiyatçısı və milli-siyasi şəxsiyətlərindən biridir. O, özəlliklə Azərbaycan'ın güneyində Türk dilinin, tarixinin və milli düşüncəsinin yaşadılması və yayılması yolunda çoxşaxəli çalışmaları ilə seçilən tarixi şəxsiyətdir. Onun yaradıcılığında Azərbaycan Türklərinin Əski Tarixi kimi böyük həcmli tarixi araşdırmanın özəl yeri vardır.

Dr. Zehtabi'nin yaşam yolu siyasi basqılar, həbslər və sürgünlərlə yanaşı, bir an belə dayanmayan bilim öyrənmə və öyrətmə ilə keçmişdir. Onun Güney Azərbaycan'a qayıtdıqdan sonrakı çalışmaları yalnız kitab yazmaqla bitməmiş, milli-siyasi düşüncə, Azərbaycan Türkcəsi, milli tarix və gənclərin yetişdirilməsi yönündə dərslərlə də davam etmişdir. O, yüksək enerjisi ilə Güney Azərbaycan'ın ən ümidverici öncüllərindən biri olmuş, milli düşüncələri gənclər arasında sürətlə yayılmış, kitabları əldən-ələ gəzmişdir.

Bu yazı Dr. Zehtabi'nin bütün yaşamını əhatə edən bioqrafi deyil. Bu, onunla müxtəlif dönəmlərdə birbaşa təmasda olmuş bir gəncin şəxsi

[1] Araşdırmacı, yazar. e-post: e.qaradagli@gmail.com

şahidliyidir. Burada yalnız şəxsən gördüyüm, yaşadığım və hafizəmdə qalan olayları yazıram.

Dr. Zehtabi İlə Birinci Tanışlığım

Mən Dr. Məhəmmədtağı Zehtabi ilə 1979-cu il inqilabından dərhal sonra tanış olan gənclərdən biri idim. Onun yaşamının bütün dönəmlərinə şahid olduğumu iddia etmirəm. Əksinə, mənim də bəlli illərdə Təbriz'dən ayrılmağa və gizli yaşamağa məcbur olduğum dönəmlər olmuşdur.

Dr. Zehtabi'nin Təbriz'ə qayıdışından sonrakı ilk aylarda onunla P. Z. və ya Qara P. ilə birlikdə Həsən ağa Dəmirçi'nin iş yerində tanış olduq. Həmin görüşdən sonra mən də bir çox gənc kimi onun həm öyrəncisi, həm də yol yoldaşı oldum.

1989-cu İl Rəhim Rəisniya'nın Kitabının Tanıtım Axşamında

Aparıcılığını etdiyim Hüseyn bəy Hərasəti'nin (Başmaqçı) evindəki "İran Tarixinin Sürəcində Azərbaycan" (آذربایجان در مسیر تاریخ ایران) kitabının anım gecəsindəki alovlu çıxışı belə idi:

> *"Azərbaycan milli azadlıq hərəkatına sızan ideologiləri*n *rolu təxribatdır. Bu millətin Rus komunizmindən çəkdikləri saya gəlməz dərəcədə böyükdür. Azərbaycan'ın başına nə gəlirsə Rus'un orada barmağı var. Biz daha ayıq-sayıq olmalıyıq. Milli hərəkətimizi o ideolojinin, bu ideolojinin ayağına verməməliyik..."*

Həmin oplantıda Urmu'dan gələn tanınmış Abbas bəy Bozorgəmin Dr. Zehtabi'nin sözlərinə qarşı etiraz edərək toplantını tərk etdi.

1990-cı İl Sava Qurultayı

1990-cı ildə Sava şəhərində Əli Kəmalı bəyin nar bağında keçirilən qurultaya Təbriz'dən bir minibüs ilə yola düşdük. Dr. Zehtabi, Həsən ağa Dəmirçi, Y. T., N. R., Yaşar Güneyli və başqa dostlarımız da bizimlə idi. Qurultaya çox sayıda tanınmış milli şəxsiyət qatılmışdı.

Dr. Zehtabi'nin təxminən bir saat davam edən coşqun çıxışı bağın havasında milli qururu zirvəyə qaldırmışdı. O, çıxışı zamanı əli ilə Azərbaycan xəritəsini çəkərək olduğumuz Sava'nı yurdumuzun ortasında göstərdi. Bununla Həmədan, Ərak kimi böyük bölgələri Azərbaycan coğrafiyasından qoparmaq istəyən yanaşmaların yanlışlığını vurğulayırdı.

Qurultaydan sonra Dr. Zehtabi bizi Marağay kəndinə apardı. Orada Türk şairi və ozanı Telimxan'ın məzarı yerləşirdi. O, bizi Azərbaycan'ın ədəbi incilərindən biri ilə tanış etdi.

Kənddə bizi görən hər kəs yaxınlaşır, xoş qarşılayırdı. Orada məktəb, sağlıq ocağı və başqa gərəkli mərkəzlər yox idi. Əhalinin hamısı Türk dilində danışır, bir kəlmə belə Farsca bilmirdi. Farslaşdırma siyasətinin hələ bu kənddə gündəlik danışıq dilini dəyişdirəbilmədiyi açıq görünürdü.

1992-ci İl AQT və Məramnamə

1992-ci ilin sonlarına doğru Azərbaycan Qurtuluş Təşkilatının (AQT) Məramnaməsinin hazırlanması üçün beş nəfərlik redaktorlar heyəti çalışdı və 39 səhifəlik sənəd hazırlandı. Mənə son redaktor kimi çalışma verildi.

Bir neçə gün sonra hazırladığım iki nüsxədən birini son baxış üçün Dr. Zehtabi'yə verdim. Təxminən on gün sonra Həsən ağa Dəmirçi'nin Təbriz'də, Lalə yolunun bucağında yerləşən "Azərbaycan Musiqi Mərkəzi"ndə AQT toplantısı keçirildi. Qurucu heyətin demək olar ki, hamısı orada idi. Həsən ağanın istəyi ilə toplantı boyunca mərkəz qapalı saxlanıldı.

Mən masanın aşağı başında, Dr. Zehtabi isə yuxarı başında oturmuşdu. Toplantı başlayan kimi doktor özünəməxsus tərzi ilə məni sərt şəkildə tənqid etdi. Məramnamənin redaktəsi onun ürəyincə olmamışdı. Mənə düzəliş etmək üçün bir həftə vaxt verdi. Mən isə doktorun tənqidlərinin hamısını qəbul etmədim.

Bu olaydan sonra Dr. Zehtabi təxminən altı-yeddi ay mənimlə münasibət saxlamadı.

1993-cü İl Yenidən Görüş və Yazilan Əsər

1993-cü ilin ortalarında Həsən ağa Dəmirçi mənə zəng etdi:

"Eldar, sabah günorta yeməyi üçün mənə gəl. Qəhvəxanada piti yeyək və danışaq." dedi.

Ertəsi gün Həsən ağanın iş yerinə getdikdə qarşımda Dr. Zehtabi'ni gördüm. Əyilib salam verdim. Halımı soruşdu, AQT-nin durumunu öyrəndi.

Masanın üstündə günəşdən rəngi qəhvəyidən qırmızıya dönmüş çantasına işarə edərək dedi:

"Sənin bir yaxın yoldaşın var, S. Ə. Onunla bir günlük işimiz olacaq. Aranız pozulmayıb ki?"

Aramızın yaxşı olduğunu dedim. Sonra soruşdu:

"Sabah günortadan sonra üç-dörd saatlıq çapxananı bağlayabilərmi?"

Məndən müsbət cavab aldıqdan sonra çantanı açdı və içindən qalın A4 biçimində yazılmış səhifələri masaya qoydu.

Gözümə ilk çarpan yazı, yanlış görmürəmsə, qalın qələmlə əski əlifbada yazılmış "Azərbaycan Türklərinin Əski Tarixi" (آذربایجان تورکلری‌نین اسکی تاریخی) adı idi. Həmin an artıq hiss etdim ki, Dr. Zehtabi məni bağışlamışdır. Altı-yeddi aylıq soyuqluq sona çatmışdı. Bu, mənim üçün həm çox anlamlı gün, həm də özümə inam baxımından böyük həyat dərsi idi.

Ertəsi gün onun istəyi ilə dostumun kiçik çapxanası yarım gün bağlandı. Saat 13-dən 17-ədək mən, Dr. Zehtabi, Həsən ağa Dəmirçi və çapxananın sahibi S. Ə. birlikdə həmin xam yazıdan yeddi nüsxə çıxardıq.

Bütün zəhmət və məsrəflərə baxmayaraq, S. Ə. bizdən heç bir ödəniş qəbul etmədi.

Dr. Zehtabi nüsxələrdən birini mənə verdi.

Bu nüsxə mənim ömrüm boyu aldığım ən dəyərli armağanlardan biri olmuşdur.

Burada xüsusi olaraq vurğulamaq istəyirəm: Mənim şəxsən gördüyüm həmin ilk əlyazmanın adı "İran Türklərinin Əski Tarixi" deyil, "Azərbaycan Türklərinin Əski Tarixi" idi. Sonrakı dönəmlərdə əsərin tanındığı adın dəyişməsi ayrıca araşdırma mövzusudur.

Azərbaycan Müstəqil Demokrat Firqəsi

Dr. Zehtabi'nin Təbriz'ə qayıtdıqdan sonra yaratdığı "Azərbaycan Müstəqil Demokrat Firqəsi"nin ilk gəncləri arasında da olmuşam.

Həmin dönəmdə Azərbaycan Demokrat Firqəsi də Təbriz'in Nisfirah caddəsində fəaliyət göstərirdi. Mən və Pərviz dostum həmin mərkəzə gedib-gəlirdik. Dr. Zehtabi ilə tanış olduqdan sonra AMDF-nin yeni quruluşu ilə də tanış olduq.

Doktor bizim klasik ADF-də qalmağımızı istədi. Onun izahına görə, yeni firqənin yaranmasının əsas səbəblərindən biri ADF-nin İran Tudə Partiyası ilə bağlılığı və həmin partiyanın Moskva tərəfindən idarə olunması idi. O, Firqə rəhbərlərinin Sovet'də yerləşməsindən neçə il sonra çox ağır təqiblərdən sonra Bakı'ya gedir. Orada tutulur və Sibir'ə sürgün düşür. Pişəvəri'nin Yevlax yolunda ölməsindən sonra Firqənin içində neçəlik yaranır. Gənc Məhəmmədtağı da bir çox gənc kimi bu ixtilafların qurbanı olmuşdur. Bu üzdən Dr. Tudə Partiyasına bağlı olan ADF-ni qəbul etmirdi.

Sonralar Dr. Zehtabi'nin tutulması və İran zindanlarında ağır illər keçirməsi ilə yaratdığı müstəqil firqənin fəaliyəti də dondurulduldu. Bu prosesin bir hissəsinə şəxsən şahid olmuşam.

1992-ci İl Zakir Bəyin Ağırlanması

1992-ci ildə Bakı'dan Təbriz'ə gələn tanınmış qarmon ustası Zakir bəyin evimizdə ağırlanması zamanı Dr. Zehtabi'nin çıxışı da hafizəmdə qalıb. O, Azərbaycan torpaqlarının tarix boyunca bölünməsindən, bu bölünmədə daxili zəifliklərin rolundan danışaraq gəncliyin gələcəkdə məsuliyət daşımalı olduğunu vurğuladı.

Onun fikrinin əsas xətti bu idi:

"Azərbaycan'ın gələcəyi parlaq, zəkalı və vətəni özündən çox sevən gəncliyimiz tərəfindən idarə edilməlidir. Bizim dövlət olmaqdan başqa yolumuz yoxdur!"

1996-cı İl Baki'da Qarabağ və Təbriz Haqqinda

1996-cı ildə Bakı şəhərində, Mərənd Hotelində, Rəsulvənd'in başçılığı ilə keçirilən Əli Kəmalı - Mikayıl Müşfiq günlərinin axşam yeməyində Dr. Zehtabi'nin Azərbaycan ordusunun orada olan üç generalına müraciətinin də şahidi oldum.

O, onların Qarabağ məsələsi ilə bağlı çalışmalarını vurğulayaraq belə dedi:

"Əziz generallarımız, bilirəm ki, sizin bütün həyatınızı Qarabağ'ın Ermənistan'dan azad edilməsi məşğul edir. Biz qəhrəman ordumuzun gücü ilə Qarabağ'ımızı azad edəcəyik. Mənim buna imanım var. Qarabağ'dan sonra Təbriz'in və Güney Azərbaycan'ın növbəsi çatacaq. Siz indidən ona hazır olmalısınız. Bölünmüş vətən vətən deyil!"

Zehtabinin Ev Dərsləri

Dr. Zehtabi'nin evlərdə keçirdiyi dərslərə uzun müddət qatılmışam. Bu görüşləri yalnız dil dərsləri kimi görmək doğru olmaz.

Azərbaycan Türkcəsi ilə yanaşı, milli tarix, milli düşüncə və milli-siyasi anlayışın öyrədilməsi də doktorun əsas hədəflərindəndi. O, gənclərin bu cür çalışma çevrələri yaratmasını təşviq edir, bəzən onların gedişinə yaxından maraq göstərirdi.

1994-cü İlin İyun Görüşü

1994-cü ilin iyununda (juən) evimizdə beş nəfərlik bir görüş keçirildi. Görüşdə Dr. Zehtabi, Həsən Dəmirçi, Azərbaycan Qurtuluş Təşkilatının -

bugünkü Güney Azərbaycan Qurtuluş Partiyasının (GAQP) yolunu təşkil edən AQT-nin - iki qurucusu və mən iştirak edirdik.

Həmin vaxt mən hər an tutulabilərdim, Həsən ağa Dəmirçi rejimin gözaltısında idi, Dr. Zehtabi isə daha çox açıq milli-mədəni çalışma yoluna yönəlirdi.

Bir neçə saat davam edən görüşdə AQT-nin güvənliyi və qurucularının qarşılaşdığı təhlükələr müzakirə edildi.

Görüşün sonunda Dr. Zehtabi siyasi basqı şəraitində milli çalışmanın başqa bir yoluna ehtiyac olduğunu vurğuladı:

> *"Gün keçdikcə rejimin basqıları artır. Bu durumda xalqın içində dilimizi, tariximizi, milli düşüncəmizi və mədəni varlığımızı yaşadabiləcək açıq bir mədəni çalışma lazımdır. Zənnimcə, bir ocağın yaranması gərəkir."*

Beləliklə, sonralar "Təbriz Mədəniyət Ocağı" adı ilə fəaliyət göstərən qurumun yaranmasına gedən yolun təməli, mənim şahidliyimə görə, həmin görüşdə qoyuldu. Çox keçmədən ocaq Dr. Zehtabi'nin başçılığı ilə fəaliyətə başladı.

Mənim isə bu ocağa yaxınlaşmağım yasaqlandı və onun çalışmalarında iştirak edəbilmədim.

Gördüyüm Milli-Əxlaqi Yaşam Örnəyi

Dr. Zehtabi'nin sadə, hərəkətli və içdən yaşamını yaxından görmək mənim üçün açıq bir həyat dərsi olmuşdur.

Ölməz Əbülfəz Elçibəy'in bir Bütöv Azərbaycan Birliyi toplantısında yüzlərlə insan qarşısında söylədiyi bu sözlər də hafizəmdə qalıb:

> *"Dr. Məhəmmədtağı Zehtabi mənim ustadım, böyük öyrətmənim olmuş və mən üniversitədə onun öyrəncisi olduğum üçün çox xoşbəxtəm."*

Bundan artıq söz deməyə bəlkə də ehtiyac yoxdur.

Yeddidən yetmişə hər kəsə sayğılı və gülərüzlü olmaq, içi ilə dışını bir tutmaq, bildiklərini hər kəslə paylaşmağa can atmaq, həftənin ən azı üç gününü Şəbüstər'dən Təbriz'ə gələrək dərslər vermək, milli məşvərətlər üçün gecə-gündüz bilmədən Tehran'a və başqa şəhərlərə getmək, əlindən düşməyən qələmi ilə bilimsel yaşam sürmək, Güneyin dərdinə ortaq olmaq üçün ailəsindən uzaqda yaşamaq, milli təşkilatlanmalarda məsləhətçi olmaq, gündəlik yaşamını ən sadə biçimdə qurmaq, Mişov yamaclarının doğasıyla gününü aydınlaşdırmaq, gənclərə vüqarı ilə örnək olmaq, ikiüzlü insanları özündən uzaq tutmaq,

dostluqlarda yumuşaqlıq lakin milli sorumluluqda sərtlik sərgiləmək, zaman tapdıqca Təbriz'də uşaq bağçalarında azyaşlı uşaqlarla görüşmək, şeir və ədəbiyat yığıncaqlarında iştirak etmək, yoxsul ailələrin dərdlərinə çarə olmağa çalışmaq və yüzlərcə özəlliyini mən daha çox şahidlik edən soydaşlarım sayabilərlər....

Bütün bunlar mənim şəxsən gördüyüm Dr. Məhəmmədtağı Zehtabi şəxsiyətinin yalnız bir neçə yönü və örnəyidir.

O, mənim şahid olduğum ən kamil insanlardan və milli öncüllərdən biri idi. Yersiz deyil ki, bir çoxları onu çağdaş Azərbaycan Milli Hərəkətinin mənəvi atası görürlər.

Şahidlik Sürəcim

Bu yazının doğru anlaşılması üçün öz şahidliyimin sürəcini də açıq deməyi vacib sayıram.

1980-1985-ci illərdə Təbriz'dən ayrılaraq Tehran'da gizli yaşadığım üçün həmin illərdə Dr. Zehtabi'nin bütün çalışmalarını izləmək imkanım olmadı.

1995-1998-ci illərdə isə Təbriz'dən Bakı'ya getməyə məcbur oldum və Dr. Zehtabi ilə yalnız iki dəfə Bakı'da görüşəbildim.

Dr. mənim Təbriz'dən Bakı'ya gəlməyimi heç bəyənmirdi. Bakı'da bir görüşümüz zamanı hər kəsin içində uca səslə mənə belə dedi:

> *"Sənin burada nə işin var? Səndən öncəkilər nə iş görəbildilər ki? Vətəni buraxmağının, Təbriz'i boşaltmağının xeyri ancaq düşmənlər üçündür. Hər kəsin sənin kimi balası var. Deməkmi, hamı sənin yolunu tutmalıdır?!"*

Bu sözlər onun gənclərdən nə gözlədiyini də göstərirdi: Ölkədən uzaqlaşmağı deyil, xalqın içində qalaraq çalışmağı.

Dr. Zehtabi'nin həyatında özəl yer tutan Babək Qalası toplantılarının böyük kütləli dönəmlərində mən Bakı'da olduğum üçün onun yanında olmamışam. Bu toplantıların şahidliyini həmin illərdə onun yanında olan dostlarımız verməlidir. Xüsusilə rəhmətlik Həsən ağa Dəmirçi'nin Dr. Zehtabi ilə çox yaxın və qırılmaz bağı olmuşdur və onun xatirələri ayrıca dəyər daşıyır.

Dr. Zehtabi'nin Ölümü İlə Bağli

1998-ci ilin sonlarına doğru Dr. Zehtabi'nin Almaniya'ya səfəri baş tutdu. O, Almaniya'dan qayıtdıqdan sonra Şəbüstər'dəki evində ölmüş halda bulundu.

Sonradan onun çılpaq cəsədinin gizlicə çəkilmiş fotoşəkilləri bizə çatdı. Fotoları çəkən dostumuz həmin vaxt Təbriz'də yaşadığı üçün onun

güvənliyi üçün bu görüntüləri uzun illər yaymadıq. O, Təbriz'dən İstanbul'a köçdükdən və güvənliyindən əmin olduqdan sonra fotolar GAQP adı ilə yayımlandı.

Fotolarda Dr. Zehtabi'nin bədənində, boynunda və ağız ətrafında göy, yaşıl və qan rəngli izlər görünürdü. Bu görüntülər onun ölümünün adi ölüm olmadığı barədə ciddi şübhələr doğururdu.

Həmin günlərdə onun yaxınlarının etirazlarına baxmayaraq, Dr. Zehtabi'nin cəsədinin tibbi müayinəsinə və ölüm səbəbinin araşdırılmasına imkan verilmədi. Bu isə, ölümün rejim amilləri tərəfindən olma şübhəsini artıraraq Azərbaycan Milli Hərəkətinin fəalları Dr. Zehtabini "milli şəhid" adlandırdılar.

Keçmişdən Gələcəyə

Mən bu xatirələri Dr. Zehtabi'nin həyatını tam anlatmaq üçün yazmıram. Onunla məndən daha çox və daha uzun müddət birlikdə olmuş insanlar var.

Mənim amacım yalnız çoxlarının bilmədiyi, şəxsən yaşadığım bəzi gerçək anları qorumaqdır.

Çünki keçmişi xatırlamağın əsas dəyəri yalnız keçmişdə qalmır. Keçmişdə qazanılmış təcrübə, doğru və yanlış addımlar, qurulan çalışma yolları və yaşanan ağır günlər gələcəyə yol göstərən bir körpüyə çevriləbilər.

Bu gün Dr. Zehtabilərin, Həsən Dəmirçilərin, Dr. Cavad Heyətlərin və onlara bənzər çoxlu milli öncüllərin yeri "Azərbaycan Milli Hərəkəti"ndə boş görünsə də, onların ömrünə bədəl minlərlə aydın, öncül və lider gənclər yetişir.

Onların hər biri "Azərbaycan Türk Millətinin" yolunu ışıqlandıran sönməz ulduzlar, yolumuzu göstərən qılavuzlardır.

Yolları yolumuz, anıları andımız olsun!

10 oktyabr 2026